# Dünyanı heyran qoyan qüdrətli lider

**Ulu öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə Azərbaycanın xaricdəki səfirlik və nümayəndəliklərində, soydaşlarımızın yığcam yaşadığı ölkələrdə də çoxsaylı toplantılar keçirilib. Həmin məclislərdə dünya miqyaslı siyasət və dövlət xadiminin bəşəri önəm daşıyan həyat və yaradıcılığı diqqət mərkəzində olub.**

## Türkiyə

Ankaradakı Heydər Əliyev adına məktəbdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş bayram proqramı təşkil olunub.

Azərbaycan Diasporuna Dəstək Fondunun (ADDF) icraçı direktoru Əkrəm Abdullayev görkəmli dövlət xadiminin Azərbaycan dövlətçiliyinin xilas edilməsində və möhkəmləndirilməsində rolundan söz açıb. O, ümidvar olduğunu bildirib ki, Azərbaycan və Türkiyənin gənc nəsli Heydər Əliyevin irsini hərtərəfli öyrənəcək, öz ölkələrinin çiçəklənməsinə layiqli töhfə verəcək. Azərbaycanın Ankaradakı səfirliyinin təhsil üzrə müşaviri Nəcibə Nəsibova qeyd edib ki, müasir Azərbaycanın bütün nailiyyətləri ayrılmaz şəkildə Heydər Əliyev şəxsiyyətinə bağlıdır. Məktəbin müdiri Oktay Kabasakalın sözlərinə görə, əlamətdar haldır ki, Türkiyənin bir çox şəhərlərində Heydər Əliyev parkları fəaliyyət göstərir, ümummilli liderin abidələri ucaldılıb.

## Özbəkistan

Azərbaycanın Özbəkistandakı səfirliyi Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi ilə birgə Muxtar Əşrəfi adına Özbəkistan Dövlət Konservatoriyasında ulu öndər Heydər Əliyevin doğum günü ilə bağlı mərasim keçirib.

Səfir Hüseyn Quliyev öz çıxışında dünya şöhrətli siyasətçi, görkəmli dövlət xadimi Heydər Əliyevin həm Azərbaycanda, həm də keçmiş SSRİ-də yüksək vəzifələr tutduğu dövrdəki fəaliyyətindən geniş söhbət açıb. O, ötən əsrin 70-80-ci illərində və müstəqillik dövründə Azərbaycan milli dövlətçiliyinin formalaşmasında, ölkənin suverenliyi, ərazi bütövlüyü, dünya birliyinə inteqrasiyası, iqtisadi inkişafındakı əvəzolunmaz xidmətlərindən danışıb.

"Özbəkistan–Azərbaycan" Dostluq Cəmiyyətinin icraçı direktoru, professor Erkin Nuriddinov qeyd edib ki, ulu öndər Heydər Əliyev hər zaman Özbəkistanla münasibətlərə xüsusi önəm verib.

## Qırğızıstan

Azərbaycanın Qırğızıstandakı səfirliyinin təşkilatçılığı ilə Bişkekdə yerləşən Heydər Əliyev adına 20 saylı məktəb-gimnaziyada Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr edilmiş tədbir keçirilib.

Səfir Lətif Qəndilov ulu öndərin iki qardaş ölkə arasında münasibətlərin qurulmasında çox mühüm rol oynadığını bildirib. Azərbaycanın dövlət rəsmiləri arasında ilk dəfə olaraq Qırğızıstana məhz Heydər Əliyevin səfər etdiyini, "Manas"ın 1000 illiyinə həsr olunmuş tədbirdə çıxış edərək "Manas"ın dilinin ortaq dilimiz olduğunu söylədiyini xatırladıb.

Diplomat bildirib ki, Prezident İlham Əliyev ümummilli liderin yolunu davam etdirərək ölkələrimiz arasındakı münasibətləri daha da inkişaf etdirməkdədir.

## Gürcüstan

Xəbər verdiyimiz kimi, azərbaycanlıların yığcam yaşadığı Marneulidə fəaliyyət göstərən "Azərbaycan Evi"ndə Ulu öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr edilmiş anım mərasimi və "Əsrin yadigarı Heydər Əliyev" kitabının təqdimatı keçirilib.

"Əsrin yadigarı Heydər Əliyev" kitabının işıq üzü görməsinin təşəbbüsçüsü olmuş Gürcüstan Azərbaycanlı Jurnalistlər Birliyindən XQ-yə bildirilib ki, Azərbaycan Respublikasının Əməkdar jurnalisti Nizami Məmmədzadənin Ulu öndərin ömür yolundan bəhs edən "Əsrin yadigarı Heydər Əliyev" poemasında qüdrətli lider Heydər Əliyevin Qarabağı işğaldan azad etmək üçün yaratdığı hərbi-siyasi əsasların önəmi geniş əksini tapıb. Əsərdə Azərbaycanın Türkiyə və Gürcüstanla dostluq əlaqələrinin yüksək səviyyədə qurulmasnda dahi soydaşımızın xidmətləri də poetikləşdirilib.

Təqdimat mərasimində "Əsrin yadigarı Heydər Əliyev" kitabı Borcalıda yaşayan soydaşlarımızın Ümummilli liderə sonsuz sevgisinin ümumiləşdirilmiş ifadəsi və onların Ulu öndərin anadan olmasının 101-ci ildönümünə təhfəsi kimi dəyərləndirilib.

## Macarıstan

Azərbaycan Respublikasının Macarıstandakı səfirliyində ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü ilə bağlı tədbir keçirilib.

Səfir Tahir Tağızadə dahi şəxsiyyətin Azərbaycanın dövlətçiliyi tarixində əvəzsiz xidmətlərindən, müstəqilliyimizin qorunub saxlanılmasında, dövlətçiliyimizin möhkəmləndirilməsində tarixi rolundan danışıb. O, Ümummilli liderin yürütdüyü uzaqgörən və məqsədyönlü siyasətin hazırda Prezident İlham Əliyev tərəfindən davam və inkişaf etdirildiyini, torpaqlarımızın erməni işğalından azad edilməsinin bunun bariz nəticəsi olduğunu vurğulayıb.




## Rusiya

Kazanda "BİRLİK: Xatırlayır, miras alır və qürur duyuruq!" maarifləndirici layihəsi çərçivəsində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş konfrans keçirilib.

Məclisdə iştirak etmək üçün Rusiyanın müxtəlif regionlarından olan Azərbaycan Milli-Mədəni muxtariyyətlərinin, eləcə də "İnkişaf" Regionlararası Azərbaycanlılar Alyansının rəhbərləri və nümayəndələri Kazanda səfərdə olublar. Layihənin əlaqələndiricisi "Tatarıstan" İctimai Birliyinin sədr müavini, jurnalist və ictimai xadim Emin Ramazanovdur.

## Səudiyyə Ərəbistanı

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı səfirliyində anım mərasimi təşkil olunub.

Ölkəmizin Səudiyyə Ərəbistanındakı səfiri Şahin Abdullayev ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin qurulmasında və inkişafında göstərdiyi misilsiz xidmətlərdən danışıb. O, Ümummilli liderin Azərbaycana rəhbərliyinin birinci mərhələsindən söz açaraq bildirib ki, hələ sovetlər dövründə Ulu öndər respublikamızın gələcək müstəqilliyi yolunda mühüm addımlar atıb və bugünkü müstəqilliyimizin ilk təməllərini yaradıb.

## İtaliya

Azərbaycanın İtaliyadakı səfirliyinin Mədəniyyət Mərkəzində xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə toplantı keçirilib.

Məclisdə səfir Rəşad Aslanov ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövrlərində ölkəmizin tərəqqisi və inkişafı üçün göstərdiyi misilsiz xidmətləri qeyd edib. O, bildirib ki, Ulu öndər müstəqil və müasir Azərbaycan dövlətinin qurucusu kimi hər zaman xalqımız tərəfindən dərin ehtiramla anılacaq. Müstəqilliyimizin təhlükə altında olduğu bir dövrdə Ümummilli liderin xalqımızın rifahı və müstəqilliyimizin qorunması üçün göstərdiyi fədakarlıq, beynəlxalq əməkdaşlığın qurulması üçün nümayiş etdirdiyi güclü iradə minnətdarlıqla yaddaşlarımızda qalacaq.

*XQ*

Xalq qəzeti .- 2024.- 12 may, № 98.- S.5.